Kim Ramazan orucunu imanla və savabını yalnız Allahdan umaraq tutarsa, o kəsin keçmiş günahları bağışlanar

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Kim Ramazan orucunu imanla və savabını yalnız Allahdan umaraq tutarsa, o kəsin keçmiş günahları bağışlanar".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, hər kimsə Allaha iman edərək, orucun fərz olduğunu və uca Allahın oruc tutanlara böyük mükafat və savab hazırladığını təsdiq edərək, riyakarlıqdan və şöhrətpərəslikdən uzaq duraraq, məhz uca Allahın razılığını diləyərək Ramazan ayını oruc tutarsa, onun keçmiş günahları bağışlanar.

http://www.sunnah.global/hadeeth/az/show/4196